İtirilmiş patriotik motivasiyanın bərpası...

Mən sözə İlahi hökmün qoyulduğu nöqtədən başlamaq istəyirəm: "Tanrı türkü "ordum!" deyərək yaratdı; - "Əgər mənim bir qövmə qəzəbim tutarsa, onların üstünə türkləri göndərəcəyəm" (Mahmud Kaşğarlı "Divani-lüğət-it-türk). Deməli, türkün yaradılışında bəşərüstü bir hikmət vardır ki, hər zaman özü haqqında deyilmiş bu hökmü və tarixi yaddaşını vəhdət halında birləşdirmək missiyası onun alın yazısına çevrilmişdir. Bu zaman Tanrının qəzəbinə tuş gəlmiş qövmlər içərisində erməni adlı tayfa, yaxud qəbilə birləşməsi öndə gedənlərdən sayılır. Düşmənin ən böyük arzusu da bu birliyin bütövlüyünü parçalamaqdır. Ümumtürk anlayışının bir parçası hesab edilən Azərbaycan düşmənin bu arzusunu gerçəkləşdirməyin ən rahat məkanı kimi seçilmiş, həmsərhəd olan güney, quzey və batı dövlətlərinin hədəf meydanı olmuşdur. Bunlardan ikisi pərdəarxası niyyətlərini gizli və ya səssiz planla həyata keçirsələr də, hər ikisinin suflyorluq etdiyi qərb "qonşumuz" açıq səhnədə dünya tamaşaçısına qanlı faciələr göstərmişdir. Bu faciələr dünyaya adam şəklində gəlmiş bir toplumun ifasında "məharətlə" nümayiş etdirilmişdir.

Əsrlərin qaranlıq dumanı arxasında zamanın tarix kitabına həkk edilmiş insan fəryadı elə insan adlanan varlığın vəhşi ehtiraslarının acı nəticəsi olmuşdur. Bunların içərisində alternativsiz vəhşiliyin bir ünvanı var; erməni nifrəti, hayestan azğınlığı. İddia isə məlumdur - torpaq. Bəzən bu torpağın səthinə hopan qan yağışdan, qardan çox oldu. Torpaq da nalə çəkdi, amma hiss etmədi ki, saysız-hesabsız qırğın "yarışlarının" səbəbi elə özüdür. Beləcə torpaq üstündə dava uzandıqca torpağın üstünə uzananların ardı-arası kəsilmədi...

XX əsrin son onilliyinə qədər erməni adlı varlıq tarixin də, torpağın da gözünü alışdırdı kütləvi soyqırımlarına. Çünki planında daha dəhşətli, bəşər yarandıqdan bəri görünməmiş (mübaliğəsiz, filansız) bir qırğın var idi. Bu haray, bu dəhşət Xocalı idi Xocalı...

"26 Fevral" dan 26 il keçir... Bu yazını yazdıqca o qanlı faciəni anbaan, saatbasaat sözün qüdrətilə canlandıran bir kitabın açıq qalmış səhifələri ilə üz-üzə əyləşmişəm. Bu kitab Əliağa Cəfərovun "Qırğın" romanıdır. Azərbaycan oxucusunun milli vicdanını həmişə ayıq saxlamaq üçün qələmə alınmış bu əsər dəhşət filmlərində təsvir olunan hər cür amansızlığı geridə qoymuşdur. Dünyanın heç yerində bu cür kütləvi dəhşətlər insanlara yaşadılmayıb ki, bu hadisə lentə alınsın, barəsində roman yazılsın. Acınacaqlı olan budur ki, bizim də inadımız, heysiyyətimiz olmayıb ki, Xocalı harayını kitabla, filmlə beynəlxalq aləmdə (Allah rəhmət eləsin Sabirə " Tək-tək oyanan varsa da, hoq dadına çatsın..."). Cahanın, bəşərin bütün diqqətini özümüzə cəm edək. Nə mane olub görəsən? Qürur? Lənət olsun belə qürura! Biganəlik? Altını çəkə-çəkə gəlirik, bəs deyil? Unutqanlıq? Allah ömrümüzdən kəsib yaddaşımıza calasın!

Xalq yalnız onun həyatını mürəkkəblə tarixin yazılı yaddaşına həvalə edənlərə borcludur, yerdə qalanlarının etdiyi hər bir şey vətəndaşlıq vəzifəsidir. Əliağa Cəfərovun "Qırğın" romanı əsrin dördə bir hissəsini özündə birləşdirmiş bir qərinəlik acı tarixin qan yaddaşıdır. Özü də bu, sırf rəsmi, və ya təxəyyül məhsulu olan bədii əsər deyil. Yəni bədiilik əsərin üslub keyfiyyətidirsə, hadisə və faktlar tam təbii şəraitdə baş verən olayların sənədli yazı formasıdır. Roman çağdaş ədəbiyyatımız üçün bədii publisistikanın orijinal və ən geniş həcmli nümunəsi kimi sözügedən millətin ictimai qabiliyyətini ədalət tribunasında sınağa çəkir. Bədiilik əsərin daha cəlbedici tərəfi olsa da, müəllifin məqsədinin arxa planında dayanmışdı. Öndə isə siyasi və hərbi qarşıdurmanın çılpaq səbəblərini, dəhşət və heyrət doğuran gedişatını oxucunun nəzərinə çatdırmaqdır. Hər iki təqdimat bir mərəmə, bir niyyətə köklənmişdir; Ey Azərbaycan türkü, oyan, özünə gəl, dünəninə, bu gününə diqqət et, yaddaşını və şüurunu təzimlə, mənliyini silkələ, oxu və onları hiss et. Hiss et, yaşa ki, düşmənini dərk edəsən. Tanıyırsan, amma dərk etmirsən. Manqurtlaşmaqdan çəkin, olmasa, məhvə doğru addımlayırsan. Bunları yaşa ki, canı canından, qanı qanından olan həmvətənlərinin çəkdiyi əziyyəti, məruz qaldığı sarsıntını duya biləsən.

Müharibə, yaxud işğal altında yaşayan bir xalqın ədəbi aləmdə aparıcı mövzusu vətənsevərlikdir. Əsər boyu yazıçı mövqeyini aydın şəkildə təyin etmək çətin deyildir. Bədii fikri öz təcrübəsi ilə zənginləşdirmiş, vətəndaşlıq mənsubluğu ilə bağlı düşüncələrində oxucu ilə səssiz dialoqa girməyi bacarmışdır. Faktların hom bədii, həm də rəsmi növbələşməsində məharətli bir intizam gözlənilir. Təxəyyül xronoloji və stastik bilginin tam görgüsü altında təqdim olunmuşdur. Ən əsası, hər cür təsvir obyektinin altında dayanan mühüm bir həqiqət öz məkanı zolağından, qətliamın fiziki təsirindən kənarlaşmamışdır. Siyasi-etnik səbəblərin bir-birinə münasibətdə ziddiyyətli prinsipi təsvir həddini keçməmişdir. Yəni, hərbi münaqişə xəttinin tərəfləri hesab edilən Ermənistan (bu ad mənim üçün xüsusi isim deyil) və Azərbaycan öz mövqeyində olduğu kimi, şişirdilmədən və ya əskilmədən verilmişdir. Bunu kitabın sonunda yazılmış bir sıra arxiv və digər mətbuat vasitələrinin adı təsdiq edir.

Əsər nə qədər tarixi faktlara və xronoloji həqiqətlərə söykənsə də, yazıçının bədii mövqeyi və dil əlvanlığı publisistik üstünlüyə təslim olmamışdır. Obrazların daxili əlemi, vəziyyəti, məişət münasibətləri, hətta təbiət təsviri zamanı dil vasitələrindən incəliklə yararlanmışdır. Bədii üslubun səfərbər imkanları hər cür təsvir manevrini hadisələrə cəlb edə bilmişdir. Çünki təqdim etdiyi olaylar həyati təcrübədən kənarda düşünülməmişdir. Mövqe və təcrübə məsələsinin ədəbi paralelliyi əsərin fonunu təşkil edir. Ədib özünün bədii keyfiyyətlərini, həyata, hadisələrə, insana baxışını gizli impulslarla oxucu qavramasına ötürür. Hiss olunur ki, eyni ağrını onlarla birgə yaşamış adamdır. (Ə.Cəfərov əslən Qubadlıdandır). Bunları açıq söyləməyə cəhd etmir, hətta özü haqqında qərarı oxucu təhlilinə etibar edir. Onun mövqeyi hadisə və xarakterlərin dinamikasında ortaya çıxır. Yazıçının baş verənlərə antoqonist münasibəti öz təmkinini proseslərin dinamik çılğınlığına əsir etmir. Hər situasiyanın arxasında müəllif ürəyinin ağrı-acıları, qubarı, qəhəri hiss olunur, amma bir daha söyləyirəm, bunu önə çıxarmamışdır. "Kadr arxasında" ağlayan yazıçının göz yaşları gözlərində donsa da, oxucu ürəyində ərimişdir.

Təcrübə məsələsinin arxasında yaradıcılıq əzablarına qatlaşmaq təəssübü dayanırsa, ait olduğu xalqın sonrakı taleyindən narahatlıq hissi yaradıcılıq zəhmətinin ağrısını üstələmişdir, daha doğrusu, bu roman ona görə qələmə alınmışdır ki, bir millətin etnik üstünlüyünün digərinin qatı qısqanclığında od tutub yandığını Azərbaycan oxucusuna çılpaqlığı ilə çatdırsın. Bu heyfi ciddi cəhdlə Azərbaycan xalqından almağa çalışan erməni ideologiyasının canlı maşınının nələr törətdiyi və nələri törədə biləcəyini Azərbaycan-türk düşüncəsinə yatırmaq yazıçı məramnaməsinin ədəbi andı kimi qəbul edilmişdir. Romanın təhkiyəsində qeyri-adilik yoxdur, əvəzində ümummilli qısas üçün qərarın verilməsi yönündə ciddi və bitkin məzmun dayanır. Bugünkü nəsil bu barədə öz məntiqinə hakimlik edə bilməsə, yüz il sonra yaşayacaq ardıcıllar bu faciənin faciəsini dərk etmək bacarığından məhrum olacaqdır. Necə ki, İrəvan, Dərələyəz, Göyçə, Zəngəzur mahallarını qaytarmaq şansı çoxdan "gedər-gəlməz"ə yollanıb.

Azərbaycan ədəbiyyatının yadelli steriotiplərdən kənar milli məfkurə dövrü 90-cı illərdən başlanmışdır. Müharibə kimi güzəştsiz "oyun" onun həyatını "hər şey Vətən üçün!" anlayışına istiqamətləndirmişsə, ön cəbhənin mənəvi silahi sayılan ədəbiyyat onun dəhşətlərini nəzm və nəsrə yalnız mövzu kimi gətirməmiş, həm də ədəbi mühitin ictimai vəzifəsini müəyyən etmişdir. Ədəbi tənqid də oxucu təhlilinin imkanları prizmasını əsas götürərək



onu formal və yeknəsəq təsvirlərin təsirindən qorumaqla bərabər, məsələni demokratik yanaşma çərçivəsində saxlayır.

O hadisələrin tarixi illəri qova-qova 26 ili tamamlamışdır. O dövrdə baş verənlər heç bir əsərdə bu qədər açıq və ürəkgöynədən şəkildə əksini tapmamışdır. Situasiyanı gərginləşdirən səbəb budur ki, əsərdə türk soyqırımı erməni vəhşiliyinin növbəti nümunəsi kimi uydurma ədəbi-bədii hadisə deyil. Kitab ötən 26 il ərzində ümummilli kin-küdurəti azərbaycanlı psixilogiyasında daha da gücləndirəcək qədər uğurlu süjet xəttinə malikdir. İnanıram ki, "Qırğın" romanı, xüsusilə, ziyalı mütaliəsinin əsas siyahısına əlavə olunsa, üsyankar ruhların say çoxluğu bütün kütləni ortaq məxrəc altında birləşdirə bilər. Bu, nə kitab alışına çağırış xarakteri daşıyır, nə də söz xatirinə kiçik bir ziyalı müraciətidir. Bu, Azərbaycan xalqının daşına bilməyən taleyüklü faciəsidir. Onun ağırlığı yaddaş tutumumuzun imkanı xaricindədir. Mən bunu dəhşətlər təsvir olunan səhifələri oxuduqca anladım. Oxuyub anladıqca isə bir qələmi, bir kağızı köməyimə çağırdım...

Öz mövqeyində nə qədər qəddar və amansız olsa da, İ.Stalinin (bu adama qətiyyən rəğbətim-filanım yoxdur) bir sözü yadıma düşür: "Vətənini xilas etmək istəyirsənsə, tüfənginə qoyduğun on güllədən doqquzunu satqınlara, birini isə düşmənə atmağın kifayət edər". Biz bir şeyi unutmamalıyıq - erməni Qarabağı işğal etməyib, o nə kərədir ki, qurd balası türkü öz yuvasından qovub onun yerində bərqərar olsun. Torpağımızı, yurdumuzu başsız başçılar peşkaş verib, guya beynəlxalq aləmin qınağından çəkinərək sülhməramlı olduğumuzu bir dövlət kimi pozmaq istəməyib (məntiqsizliyə bax). Xocalı genosidinin pərdə arxasında bir günün, bir həftənin içində düşünülməyib. Qarabağ ətrafında yerləşən ordu birləşmələrinin əmr olmadan köməyə gələ bilməməsi düşmənə strateji əhəmiyyətli Xocalını ələ keçirməyə çox yaxşı fürsət yaradır. Və durmadan silah və canlı qüvvə tədarükündə olur. Məni qınamayın, bu ifadə üçün; kaş erməni təəssübkeşliyi bizdə olaydı... Monte Melkolyan kimi beynəlxalq qaniçən terrorçu böyük ermənistan xəyalını gerçəkləşdirmək üçün canını odlu güllələrin, mərmilərin qəbağına verir, erməni əsgərləri hələk olan, əsir düşən, yaralanan azərbaycanlıları soyub- , qiymətli əşyalarla birlikdə Azərbaycan manatını da tələb edirlər ki, əsir olan ermənilər almaq üçün Azərbaycan tərəfinə versinlər. Amma bizdə yüksək rütbəli hərbçi zabitlər öz xalqını qorumaq, yurdunu əlindən verməmək üçün "beynəlxalq qurumların tənəsindən çəkinən" rəhbərlərdən əmr gözləyir. Yuxarılar susur, aşağılar qırılır... Rus generalı Qrekovla erməni generalı Ohanesyanın dialoqu diqqət çəkir;

" - *Xocalını da, aeroportu da alıb sizə verəcəyəm... Ancaq yollar və onun ətrafı gediş-gəliş olan yerlər minalanıb. Minalardan təmizləmək sizin boynunuza düşür...*

- *Əgər kömək versəniz, əməliyyatdan bir gün əvvəl təmizləyərik...*

General Qrekov fikirləşmədən cavab verdi :

- *Onu da edərəm...*

- *Nə qədər ki, türklər susurlar, səslərini çıxarmırlar, tələsmək lazımdır. Düzünə qalsa, biz ehtiyat edirdik ki, türklər Qarabağda olan hadisələri bütün dünyaya bildirib, bizə qarşı nə isə ciddi bir addım atacaqlar Sonuncu Malıbəyli kəndinin əhalisini çıxaranda da mövqelərini bildirmədilər. Yəqin ki, Xocalını da çıxaranda susacaq, səslərini çıxarmayacaqlar."* **(səh.175)**

Amma 1992-ci ilin lap başlanğıcından Xocalı və ona ətraf kəndlər yerli özünümüdafiə batalyonlarının, kiçik hərbi birləşmələrin sayəsində müdafiə olunurdu. Necə igid oğullar idi onlar... Kapitan Kamil Məmmədov, qardaşı Rövşən, Əlif Hacıyev, Aqil Quliyev, Rembo ləqəbli Elçin və s. kimi neçə prototip obrazın kürəyi arxasında qorunurdu insanlar. Bu oğullar qeyrəti, vicdanı ilə bərabər vuruşurdular. Onların köməksiz insanlar üçün narahat qəlbləri düşmənə nifrətdən od tutub yanır, Xocalının itkisi namuslarını göynədirdi. Hər biri öz ağırlığında qəhrəman əsgər idi, düşmənə təslim olmamaq üçün bütün imkanlarını, bacarığını, qüvvəsini əsirgəmədən döyüşə hazır idilər. Silahların sağa-sola sütüyən güllələri, mərmilərin dağıdıcı hücumuna baxmayaraq, ölümə açıq-aşkar meydan oxuyan bu igidləri sanki oxucu duası qoruyurdu. Sarsıntı və dəhşətləri yaşamaq adi hala dönmüşdü. Silah yox idi, əzm var idi, yüksək rütbəli hərbi komandanlıq və idarəetmə yox idi, qanlarında vətən təəssübü var idi. Amma neyləyəsən, erməni və rus silahlı birləşmələri sanki əjdaha başı idi, kəsirdin, məhv edirdin, yerində əllisi, yüzü əmələ gəlirdi. Adamlar ən vəhşi şəkildə qətlə yetirilir, sağ qalmağı bədbəxtlik bilən insanların ölmək üçün ölümə yalvaran ah-vayları diri ikən ruhuna əmanət edilir. Xocalı şəhəri min illərin xarabalığına bənzəyir, şahə qalxan alov dilləri göyün üzünü qarsıdırdı... Həmin günlərdə yer üzündən tamamilə silinmək hökmünə məhkum olunmaq Xocalı şəhərinin düz üzünə oxunmuşdu.

Deyilənlərə görə, dünyanın ən çox gəlir gətirən rəsm əsərlərindən biri Pikassonun "Gernika" tablosudur. Müharibə mövzusunda ən yaxşı rəsm nümunəsi sayılan bu əsər 1937-ci ildə faşistlər tərəfindən darmadağın edilən İspaniyanın Gernika şəhərinə həsr edilmişdir. Maraqlı məqamdır ki, heç vaxt o şəhəri həmin vəziyyətdə görməyən Pikasso yaşasaydı və Xocalı haqqında yazılmış "Qırğın" kitabını oxusaydı, "Gernika" əsəri "Xocalı" tablosundan nə qədər geridə qalardı?!

Bədii əsərin ictimai məsuliyyəti onun bədii keyfiyyətindən daha vacib məqama xidmət edir. Çünki bədiilik onsuz da ədəbi qloballaşmanın pozulmaz düsturudur. O səbəbdən məhz ideoloji çəkinin ağırlığı əsərin məfkurəvi rolunu mübahisəsiz olaraq təsdiq edir. Bu, subyektiv təhlil təsirindən tamamilə kənar ideyadır. "Qırğın" romanının süjeti başdan-başa emosionallığın coşqusu üzərində qurulmuşdur. Belə hesab edirəm ki, azərbaycanlı-türk kimliyinin sosial, həmçinin etnosiyasi qüdrətinin oyanışı və mübarizəsi üçün əvvəlcə sadə, təhkiyəsi yüngül, "damarlarda qanı coşduracaq" əsərlər üstünlük qazanmalıdır. Burada süjetin adilikdə alilik dəsti-xətti ədəbi tənqidin sadədilli əsərlər üçün kütləvi ədəbiyyat prinsipi kimi ədalətsiz qərarını alt-üst edir.

(Davamı 15-ci səhifədə)

İtirilmiş patriotik motivasiyanın bərpası...

(Əvvəli 10-cu səhifədə)

Biz işğal olunmuş, ərazi bütövlüyünü itirmiş xalqıq. Döyüş ruhuna, mübarizə əzminə daha çox ehtiyacı olan millət statusunu otuz ilə yaxındır "qazanmışıq". Mücərrəd ideyalı əsərlərin "elitar" ədəbiyyat nümunəsi kimi təqdim olunması üçün müharibəsiz şəraitdə yaşamaq tələb olunur. Heç bir ədəbi əsər öz xalqının keçmişindən və real dramatizmindən yüksəkdə dayanmır. Bizim bu gün stolüstü kitabımız humanizm və bəşəri dəyərlərlə yaşayan xalqımıza qan udduran bir kütlənin fiziki və mənəvi cəzasını vermək üçün hərbi starta hazır edən və tarixi əhəmiyyətini həmişə qoruyan əsərlər olmalıdır. "Qırğın" kimi... Biz ərazi bütövlüyümüzün tikanlı məftillərini Laçının, Şuşanın və s.-nin arxasından keçirməsək, ədəbiyyatın təbliğ etmək istədiyi digər bəşəri mövzular süni təntənənin tozu-dumanı içərisində itib batacaqdır. Və bir qədər sərt səslənsə də, indi başqa yaradıcılıq istiqamətinin şəninə söz söyləmək çox yersiz alınır. Mövzu, ideya təkrarçılığını dəstəklərimərəm, lakin ədəbi rəngarənglik milli düşüncəni sferal maraqlara yox, xarakterik bərkimə, bütövləşmə anlayışının üstünlüyünü sübut etməlidir. Nə də yara - torpaq yarası köhnəlmir ki, qarşılığında ədəbi mühitdə müharibə məfhumu da yalnız tarixi əsərlərin bədii mövzusu kimi qala. Bunu kitabın hər səhifəsində əksini tapan qanlı hadisələrin dəhşət dolu anları qadağan edir.

Əsər boyu təsiredici səhnələr sürətlə bir-birini əvəz edir. Qış gecəsinin dondurucu şaxtasına rəğmən yalın adamların acınacaqlı taleyi təəvvürəgəlməz dərəcədə ağır idi. Əllərinin donunu yumşaltmaq üçün qucağındakı südəmər körpəni yerə qoyan ana bir an sonra onu görmür. Qaranlıq olduğundan və hər yeri qar örtdüyündən həmin andaca körpə diyirlənərək üzüaşağı gedir. Ermənilər əsirlərin diri-diri bədənlərinin ətini kəsib zorla ağzına dürtürlər. Gördüyü vəhşilikdən sarsılmış qadını saçlarından asırlar. Yaralıların bədən üzvlərini kəsib, başlarını futbol topu kimi bir-birinə atırlar. Namusu "dollarlara" satılan qız-gəlinin alçaldılan ləyaqəti, buna dözməyənlərin dağlardan, qayalardan özünü atması çarəsiz, silahsız türk kişisinin qeyrət damarını ayaqlar altında kobudluqla tapdalayırdı. İnsan ölümü isə çox adiləşmişdi. Müharibə onlara laqeydlik gətirməmişdi, sadəcə sağında, solunda qırılan adamlar üçün şalavat çəkməyə belə vaxt yox idi.

Bir vaxtlar böyük Sabir həyatın mənəvi iztirablarına dözməyərək deyirdi; Mənə zindan kəsildi öz vətənim! O gecə doğma vətənində həm fiziki, həm də mənəvi zindanı yaşayan çoxsaylı insan ruhları bizi üzrlü hesab eləsin, düşmən hələ də cəzasızdır. Amma yox, o cəzanın daha çox layiq olduğu milli satqınların dar ağacı qurulmayınca mən özümüzü cinayət tərəzisinin ağır gözündə görəcəyəm... Bu, məsələnin "hakim" qərarı... Bəs, əslində, problemin bədii həlli ədəbiyyatda öz əksini necə tapır?

Tarixi yaddaşsızlığın cəzası eyni, yaxud oxşar müsibətlərə dəfə-dəfə düçar olmaqla həyata keçir. XX əsrin siyasi olayları xəbərdarlıq barmağını bir neçə dəfə silkələsə də, nəticəsi yüngül dəyərləndirilmiş, beloliklə, "xalqlar birbirinə düşmən deyildir" prinsipini zorla mənimsətmişlər. Bunun sonucu genetik qavrama qabiliyyətinin təhlilsiz və tanımasız biçim alması ilə yekunlaşmışdır. "Qırğın" romanı unutqanlıq sindromu əleyhinə güclü immunutetiv üstünlüyə malikdir. Bunun üçün burada yaşanları bir dəfə "yaşamaq" kifayətdir. Əsər mövcud konsepsiyanın kontekstində yeni olmasa da, məzmun bütövlüyünü inkar etmək olmaz. Ədəbi prosesdə təkrarçılığın diktaturası hökm sürdükcə məzmunun aliliyi deformasiyaya uğrayır. Bəzən "yeniliyə" can atmaq istədikdə cılız və ya vulqar modernizm qarşısında aciz qalır, bu zaman sözünü yox, yerini dəyişməyə məcbur olur. Bu gün buna görə ədəbi gedişat mənəvi komandan rolunu oynaya bilmir. Başqa cür desək, sovet dövrünün 50-60-cı illərində lokomativ rolunu oynayan ədəbi motivasiya indi yan hakim kimi "oyun"u kənardan izləməklə işini bitmiş hesab edir.

Patriotizm ruhunu aşılamağın iki yolu var; hərəki səhnələrin canlılığı və inandırıcılığı, bədii sözün emossional təsir gücünün potensial qüvvəsi. Nəsr dili üçün təsvir üsulu aparıcı rol daşıdığından həmin vəziyyətin düşmənə nifrət hissini tarıma çəkən səhnələr diqqəti cəlb edir. Burada sənətkar bacarığı düşmənə olan milli nifrətə, qəzəbə bələdçilik edir. Yazıçı problemin həllini erməni əsərləri ilə üz-üzə dayanan əsirlərin düşmən azğınlığının müqabilində onlara verdiyi "ölüm hökmü"də əks etdirib. Onun öz idealına olan inamını bu əsirlərin erməni quldurlarına söylədiyi cümlələr tamamlayır." ...Nəbi çəkinmədən ürəyindəkiləri onun üzünə dedi:

- Biz nə etməliydik! Torpaqlarımızdan öz xoşumuzla çıxmalıydıq ki, siz gəlib sahib olasınız? İndiyə kimi bizim torpaqlarımızda dövlət qurmusunuz... Mən bugünkü zəifliyimizə görə yox, dədə-babalarımızın sizə verdikləri torpaqlara, etdikləri hörmətə görə xəcalət çəkirəm. Millətimizə etdiyiniz zülmləri unutduğunuza görə, zülmləri əzələrimə görüb, öldürülən azərbaycanlıların ruhu qarşısında günahkar olduğumuz üçün xəcalət çəkirəm... (səh. 446). Həyat materialından özünəməxsus tərzdə istifadə edən müəllif öz arzu və idealını əsgər obrazlarının ruh yüksəkliyində yaratmışdır. Yeri gəlmişkən, bir fərqli məqam da diqqətdən yayınmamışdır, burada baş və epizodik obrazlar yoxdur. Bütün obrazlar əsasdır, hətta az görünüb tez çıxan qəhrəman da hər cür epizodiklikdən daha yüksəkdə dayanır. Düzdür, ədib kapitan Kamili hadisələri arxasınca çəkib aparan mərkəzi surət kimi hədəf seçsə də, əslində, ə, özü də eşiyindaşları ilə eyni ədəbi hüquqa malikdir. Onun vəziyyəti çox vaxt daha ağır canlandırılır, erməni dilində təmiz danışdığı üçün onlara aid hərbi paltar geyinərək özünü erməni əsgəri kimi aparır, əsir düşənləri birtəhər qorumaq, fürsət düşən kimi düşmənin canlı qüvvəsini məhv etmək üçün olmazın əzablara qatlaşırdı. "Vaxt yox idi. Avtomatını çiyninə keçirib sağ-solunda qaçışan ermənilərə rus əsgərlərinə qoşuldu... Sanki buradan başkəsənlər keçmişdi. Kəsilmiş başlardan keçirilmiş paya ilə aşağı qan süzülür, qarın üzərində iz buraxırdı. Kamil, hətta başların birindən buxarın qalxdığını gördü, yenicə kəsilmişdi. Dişi dodağını gəmirə-gəmirə, göz yaşları qəlbinə axaaxa bu dəhşətli manzərəni izlədikcə avtomatı çevirib yanındakıları qırmaq, biçib-tökmək istədi, ancaq yenə də özünü ələ almağı bacardı, daxilindəki kinin, qəzəbin eşiyə çıxmasına imkan vermədi. Yaşadığı bu anları heç kəsə arzulamazdı..." (səh.296).

Ədəbiyyat hər bir xalqın genetik və milli təfəkkür kodudur. Əgər bir əsər onun kimliyini özünə göstərmirsə, keçmişinə nəzərən gələcəyini "tərbiyələndirmirsə", onda ədəbi cəbhə bəsit sözçülüyün idarəsi altında "himayə" olunacaqdır. Bu gün bədiilik, xəlqilik, kübar modernizm milli maraqlar əsasında nizamlanmalı və ümumbəşəri təqdimata hazır dayanmalıdır.



Günel ORUCOVA,
AMEA- nın
Nəsimi adına
Dilçilik
İnstitutunun
dissertantı

Kredo.- 2018.- 8 mart.- S. 15.